BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# Sika® Stabilizer PAV 100

Asfalt Qatının Soyulmasını Önləyici Əlavə

## TƏSVİR

Sika® Stabilizer PAV 100, bitumun aqreqatla daha yaxşı yapışmasını təmin edərək soyulmaya qarşı müqavimətini artıran asfalt əlavəsidir.

## İSTİFADƏ YERLƏRİ

- İsti Bitum Qarışımlarında (BHM)
- Asfalt aşınma qatında
- Səthi üzlənmələrdə

## ÜSTÜNLÜKLƏRİ

- İsti bitumda xassələrini itirmədən uzun müddətli dayanıqlığını qoruyur.
- Su səbəbli zədələnmələri və çatları minimuma endirir
- Yüksək yapışma gücünə malikdir.
- -10°C ilə 0 °C arasında tətbiq olunma qabiliyyətinə görə soyuq havalarda asanlıqla bituma qatılır.
- Mayelik xassəsi tətbiq asanlığını təmin edir.
- Ağır yükün səbəb olduğu təkər izlərini minimuma endirir.
- Asfaltın ömrünü uzadır.
- Yüksək parlama nöqtəsinə malik olduğundan tətbiqin təhlükəsizliyini təmin edir.

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

AZS Sertifikatı

## MATERIAL MƏLUMATI

| | | |
|---|---|---|
| **Kimyəvi əsası** | Yağ turşuları əvəzedicisi | |
| **Qablaşdırma** | IBC -900 Kg | |
| **Görünüş və rəng** | Maye, tünd qəhvəyi | |
| **Saxlama Müddəti** | Doğru anbarlama şərtlərində istehsal tarixindən etibarən 12 ay. | |
| **Saxlama Şərtləri** | Açılmamış, zədələnməmiş qablaşdırmada, +5 °C və +35 °C temperaturda sərin və quru şəraitdə düzgün anbarlama şərtlərində saxlayın. Qablaşdırma üzərindəki məlumata diqqət yetirin. Donma,bərkimə və çöküntü olduqda, otaq temperaturunda əridilərək və  güclü qarışdırmaqla istifadəyə hazır edilməlidir. | |
| **Sıxlığı** | 0.92 - 1.0 g/cm³ (+20°C-də) | ISO 758 |
| **Ərimə Temperaturu** | 350°C | 15% solution – 760 mmHg |
| **Alovlanma temperaturu** | 200°C | |
| **pH-Dəyəri** | 9 | |
| **Özlülük** | 250 mm²/s | +40°C-də |

| | |
|---|---|
| **Əlavə Olunma** | Sika® Stabilizer PAV 100 aqreqat növündən asılı olaraq bituma 0,2% -0,3% əlavə edilməklə istifadə olunur. |

## MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

## ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

İstifadəçi, hər hansı məhsuldan istifadə etməzdən əvvəl ən son müvafiq Təhlükəsizlik Məlumat Vərəqi (SDS) ilə tanış olmalıdır. Təhlükəsizlik Məlumat Vərəqi (SDS), fiziki, ekoloji, toksikoloji və digər təhlükəsizliklə bağlı məlumatları təqdim edir, kimyəvi məhsulların təhlükəsiz istifadəsi, saxlanması və utilizasiyası ilə bağlı məlumat və məsləhətlər verir.

## YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12